**Çağdaş jurnallar arasında öz dəst-xətti, uzunömürlülüyü ilə seçilən "Tarixi şəxsiyyətlər" jurnalının 20 illik yubileyidir. Müsahibimiz jurnalın yaradıcısı və baş redaktoru Xəlil Qarəhmədovdur.**



# "Tarixi şəxsiyyətlər" jurnalı 20 illiyini qeyd edir...

## *Xəlil Qarəhmədov: "Bu jurnalla dünyanın 35 ölkəsində Azərbaycanı təmsil etmişəm"*

**- Siz "Tarixi şəxsiyyətlər" jurnalından əvvəl "Dahi" adlı jurnal və eyni adlı qəzet də buraxdınız. Qəzet-jurnal nəşr etmək istəyiniz hardan qaynaqlandı?**

- Bu, ilk növbədə ulu öndər Heydər Əliyevə olan şəksiz sevgimizdən, vurğunluğumuzdan irəli gələn məsələdir. Jurnalistikadan uzaq bir insan idim, amma 20 il əvvəl bu sahəyə qədəm qoydum. Bir təşkilatçı olaraq bu işləri boynuma götürdüm və işlədiyim təşkilatın maliyyəsi hesabına bu nəşrlər ərsəyə gəldi. Azərbaycanda rəngli formatda çıxan ilk qəzet mənə məxsus "Dahi" qəzeti olub. Çox baha qiymətə xaricdən kağız gətirdik və bu qəzeti nəşr etdik. Bütün bunlara çox çətinliklə nail oldum. Bu qəzet respublikada əl-əl gəzirdi. Təvəzökarlıqdan uzaq olsa da deməliyəm ki, o dövrdə hətta dövlət qəzetləri də rəngli çıxmırdı. Bu, ulu öndərə olan sonsuz sevgi və hörmətimin təzahürü idi. Bizim Ədliyyə Nazirliyində aldığımız qeydiyyata görə "Dahi" həm qəzet, həm də jurnal kimi təsis edilib nəşr olundu.

**- 20 ildir ki, "Tarixi şəxsiyyətlər" jurnalı nəşr olunur. Çox gözəl tərtibatda, maraqlı məzmuna malik jurnallar çıxdı, amma çoxu uzunömürlü olmadı. Siz həm təsisçisi, həm də baş redaktoru olduğunuz "Tarixi şəxsiyyətlər" jurnalının nəşrini hansı çətinliklər bahasına davam etdirə bildiniz?**

- 2005-ci ildən bugünə qədər "Tarixi şəxsiyyətlər" jurnalı kimi ardıcıl, stabil nəşr olunan ikinci bir müstəqil jurnal yoxdur. Bu jurnal üç dildə - Azərbaycan, ingilis və rus dillərində nəşr olunur.

Bilirsiz ki, o vaxt bu cür texniki imkanlar yox idi, internet bu qədər tərəqqi etməmişdi. Jurnalın uzunömürlü olmasına gəlincə, buna böyük çətinliklə nail olmuşuq. Burda peşəkar komandanın zəhmətini və dostlarımızın dəstəyini qeyd etmək yerinə düşərdi. Bu jurnalı fədakar əməyimizin nəticəsində 20 ildir yaşadırıq. Maliyyə çətinliyimiz var. Jurnalın nəşrini "Hacı Xəlil" MMC maliyyələşdirir. Dövlətə vergi ödəyən bu təşkilatın əldə etdiyi vəsait, eyni zamanda sponsorların və reklamvericilərin hesabına nəşri davam etdiririk.

**- Çətinlikləriniz nədir?**

- Əsas problemimiz iqtisadi çətinliklə bağlıdır. Çox çətinlik çəkirik. Bu çox ağır və zəhmətli işdir. Dövlət bir sıra mətbu orqanlara maliyyə dəstəyi göstərir, onların ayaqda durmasına dəstək verir. Arzu edərdim ki, "Tarixi şəxsiyyətlər" jurnalından da dövlət öz dəstəyini əsirgəməsin, buna ciddi ehtiyacımız var. Azərbaycanda çoxsaylı qəzetlər çıxsa da, nəşr olunan jurnalların sayı azdır. Bu baxımdan hesab edirəm ki, jurnallara da maliyyə dəstəyinin göstərilməsi çox yaxşı olardı.

**- Bu jurnalı nəşr edəndə məqsədiniz nə idi?**

- Azərbaycanın haqq səsini beynəlxalq aləmə çatdırmaq istəyirdik. Jurnalın bir neçə dildə nəşr edilməsi də bu qayəyə xidmət edirdi. Haqq səsimizi beynəlxalq aləmə yaymaq üçün Xarici İşlər Nazirliyi ilə bağladığımız müqaviləyə əsasən səfirliklər, o zaman yeni formalaşan Diaspor Komitəsi vasitəsilə jurnalın nüsxələrini müxtəlif xarici ölkələrə göndərirdik. Bu jurnalla dünyanın 35 ölkəsində Azərbaycanı təmsil etmişəm və müxtəlif ölkələrdə jurnalın çox möhtəşəm təqdimat mərasimləri keçirilib. Jurnalın ilk sayını ulu öndər Heydər Əliyevlə həsr etmişdik. 2004-cü ildən nəşrə başladıq, 2005-ci ildən isə jurnal davamlı şəkildə nəşr olunur. Odur ki, 2025-ci ildə "Tarixi şəxsiyyətlər" jurnalının 20 illiyini qeyd edirik. Azərbaycan Mətbuat Şurasında jurnalın 20 illiyi yüksək qeyd edildi, Şura bizi mükafatlandırdı. 20 ildir ki, davamlı olaraq nəşr olunuruq.

**- Bəs jurnaldakı məqalələrin tərcüməsi sahəsində çətinliyiniz olmur ki?**

- Könüllü tərcümə edənlər də olur, ödəniş yolu ilə edənlər də. Mən özüm rus və ingilis dillərini də bildiyim üçün tərcümə sahəsində elə də ciddi problemimiz olmur.

**- İndiyə qədər "Tarixi şəxsiyyətlər"in neçə sayı çıxıb?**

- 60-dan artıq sayımız nəşr olunub. Növbəti sayımız da nəşr ərəfəsindədir.

**- Jurnalın saylarını necə yayırsınız?**

- Əsasən səfirliklərə, dövlət qurumlarına, təhsil müəssisələrinə, bir sözlə, çox yerə hədiyyə edirik, göndəririk. Satışımız yoxdur, bu da, dediyim kimi, bizə ciddi maliyyə çətinliyi yaşadır. Bu baxımdan deyirəm ki, dövlətin maliyyə dəstəyinə ehtiyacımız var.

*"Dünyanın 10-a yaxın ölkəsinin prezidentləri və baş nazirləri ilə görüşmüşəm"*

**- Bu jurnalın hər sayı bir tarixi şəxsiyyətə həsr olunur, bir sözlə, jurnalın mövzu coğrafiyası çox genişdir...İndiyə qədər haqqında jurnal buraxdığınız tarixi şəxsiyyətlərdən, dövlət xadimlərindən, siyasilərdən kimlərlə şəxsən görüşübsünüz?**

- Biz dünyanın hər qitəsindən yazırıq. Çox tarixi şəxsiyyətlərlə görüşmüşəm. Xatirələrimiz yazmışam və kitab çap etdirəcəyəm. Dünyanın 10-a yaxın ölkəsinin prezidentləri və baş nazirləri ilə görüşmüşəm. Onların hər birinin mənim ürəyimdə öz xatirəsi var. Maraqlı keçən tədbirlər, qəbullar, görüşlər unudulmazdı. Bu ilk növbədə Azərbaycana verilən böyük dəyərin, marağın təzahürüdür, eyni zamanda da jurnalımıza bəslənən məhəbbətin, diqqətin göstəricisidir.

**- Kiminsə adını çəkmək olmazmı?**

- İndiki kimi xatırlayıram, Serbiyanın prezidenti Boris Tadiç ölkəsinin Azərbaycandakı ovaxtkı səfiri ilə birgə məni qəbul etdi. Bu görüş keçmiş səfir üçün düşərli oldu, o, sonra xarici işlər nazirinin müavini təyin edildi. Ölkəsini çox sevən bir insan idi, Azərbaycanda üç il səfir oldu. Jurnalın Özbəkistana həsr etdiyimiz sayının təqdimatı bu yaxınlarda paytaxt Daşkənddə keçirildi. Təqdimat mərasimində Özbəkistanın baş naziri və 14 nazir iştirak etdi. Özbəkistanın bütün dövlət televizyaları bu təqdimatı çox geniş şəkildə işıqlandırdı. Qardaş ölkənin baş naziri və xarici işlər naziri məni qəbul etdilər, təqdim etdiyim ödülü prezidentə çatdıracaqlarına söz verdilər. Belə hadisələr çoxdur...Siz bütün bunları geniş şəkildə xatirələrimdə oxuya biləcəksiniz.

**- Bu jurnalın üç dildə çap olunmasının sizcə hansı üstünlükləri var?**

- Bu bizə dünyaya çıxış qazandırır. Biz bu barədə çox düşündük. Azərbaycan dilində çap olunan mətbuat ölkəmizin sərhədlərindən kənara çıxmır, amma rus dilinin imkanları, auditoriyası böyük olduğu üçün bu dil vasitəsilə səsimizi daha çox yerə çatdıra bilirik.

**- Əsasən hansı mövzulara üstünlük verirsiniz?**

- Biz tarixi şəxsiyyətlərin həyatları, fəaliyyətləri, gördüyü işlərlə yanaşı həm də onun aid olduğu ölkənin yaranmasından, tarixindən, mədəniyyətindən, iqtisadiyyatından, coğrafiyasından və sairdən yazırıq. Bir sözlə, o ölkənin tam mənzərəsini, eyni zamanda da Azərbaycanla həmin dövlətlər arasındakı əlaqələri təqdim edirik. Bununla da həmin ölkələrdə Azərbaycanla bağlı rəy formalaşdırırıq. Bu bir bilgi jurnalıdır, maarifləndirici xarakter daşıyır.

**- Jurnalın saytı varmı?**

- Var idi. Təəssüf ki, maliyyə çətinliyi üzündən bağlandı.

**- Yeni planlarınız nədir?**

- Azərbaycanı daha yüksək səviyyədə təbliğ etmək, Azərbaycan həqiqətlərini dünyaya yaymaqdır. Azərbaycan deyəndə bu müqəddəs torpağımızın gözəlliyi, insanlarımızın əzəməti, qalib dövlətimizin qüdrəti göz önünə gəlir. Biz 44 günlük Vətən müharibəsində qazandığımız böyük zəfərlə dünya tarixinə adımızı yenidən yazdıq. Bütün dünya Azərbaycanın gözəlliyinə, əzəmətinə heyran kəsilib.

Azərbaycan deyəndə, böyük zallarda dövlət himnimiz səslənəndə 400-500 nəfərlik auditoriya ayağa durursa bundan çox qürurlanıram. Bir neçə gün əvvəl dünyanın bir nömrəli dövlətində-ABŞ-da, dünyanın bir nömrəli paytaxtında - Vaşinqtonda, dünyanın bir nömrəli ofisində - Ağ Evdə Azərbaycanın adının səslənməsini, Azərbaycan Bayrağının dalğalanmasını, Azərbaycan Prezidentinin möhtəşəm çıxışını görmək, eşitmək həqiqətən də qürurvericidir.

Mən jurnalın iki sayını ulu öndərə həsr etmişəm, Heydər Əliyevin 90 illiyi və 101 illiyi münasibətilə xüsusi buraxlış çap etmişəm. Jurnalın 4 sayını Prezidentimizin siyasətinə, möhtəşəm qələbəmizə, Birinci vitse-prezident Mehriban Əliyevanın ad günü ərəfəsində jurnalımızın bir sayını ona həsr etmişik. Tahir Salahovdan tutmuş, Şeyxülislam Hacı Allahşükür Paşazadəyə, akademik Akif Əlizadəyə və başqa görkəmli şəxsiyyətlərə jurnal həsr etmişik. Azərbaycanın məşhur şəxsləri, dünya çapında tanınan azərbaycanlılar haqqında jurnallar çap etmişik. Jurnalın növbəti sayı xalq yazıçısı Anara həsr olunub.

Tirajımıza gəlincə, bu, maliyyə vəsaiti ilə bağlı olan haldır. Minimum tirajımız 500, maksimum tirajımız isə 2000 nüsxə olub. İmkanlarımız çərçivəsində jurnalı çap edirik. Jurnalımıza maraq çox böyükdür, mövzularımız əsasən oxucuların fikirlərinə, arzularına uyğun formalaşır. Bundan əlavə, dünyada tanınan şəxsiyyətlər haqda da yazırıq. Jurnalımızın iki sayını Türkiyə prezidenti hörmətli Rəcəb Taib Ərdoğana həsr etdik, bu sayların hər biri onun kitabxanasındadır.

**- Jurnalın adı necə yarandı? Niyə məhz "Tarixi şəxsiyyətlər" adını seçdiniz?**

- Bu ad dünya çapında ilk dəfə bizdə işlədilib. Dünyada bu adda ikinci bir jurnal yoxdur. Uzun axtarışdan sonra bu adın üstündə dayandıq. İdeya müəllifi özüməm.

Düz 20 ildən çoxdur ki, oxucularlayıq. Dediyim kimi də jurnalın 20 illiyi Mətbuat Şurasında yüksək səviyyədə qeyd edildi, buna görə Şura rəhbərliyinə təşəkkür edirəm. Müəyyən qurumlarda da yibileyimiz keçirildi, ayrı-ayrı təşkilatlardan, QHT-lərdən təbrik məktubları aldıq.

Bu il jurnalın 20 illiyidir, qarşıdan gələn il də mənim 70 illiyimdir və ümid edirəm ki, dövlətimizin mənə nəzər-diqqəti olacaq, məni unutmayacaq.

***İradə SARIYEVA***